E-1508

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər–N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz ərizəsini verən iddiaçı "Unilever N.V" */ünvan: Weena 455, 3013 AL, Rotterdam, Netherlands /* nümayəndəsi patent müvəkkili T.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

25.12.2017 il tarixdə **"Unilever N.V."** şirkətinə aid **"Маленькая фея"** adlı əmtəə nişanının *(2017 00255 saylı iddia sənədi)* 03-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 07.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, "Unilever N.V." şirkəti "Маленькая фея" adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın qərarını almışdır. Həmin qərarda qeyd edilmişdir ki, "Əmtəə nişanında **"Маленькая фея"** söz birləşməsinin elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur". "Маленькая фея" söz birləşməsindəki sözlər disklamasiya olunmuş, həmin sözlər nişanın müstəqil mühafizə obyekti olmayan elementləri hesab edilir. "фея" sözünə müstəqil hüquqi mühafizə verilmədiyinə görə, oxşar əmtəə nişanlarının digər ərizəçi tərəfindən qeydiyyata alınmasına yol verə bilər. "фея" sözü fərqlənmə qabiliyyətinə malikdir və 3-cü sinif əmtəələri üçün söz əmtəə nişanı kimi qeydiyyata alına bilər. Əmtəə nişanında "Маленькая фея" söz birləşməsindəki "фея" sözünün fərqlənmə qabiliyyətinə malik olmasını nəzərə alaraq, həmin sözə mühafizə verilməsini, ekspertizanın 07.11.2017-ci il

tarixli qərarının 526 kodun altında müvafiq düzəlişlər edilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili T.Yaqubovanın çıxışını dinləyib, hesab etdi ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, "Маленькая фея" adlı əmtəə nişanının 03-cü sinif əmtəələri üzrə qeydiyyata alınmasına dair 27.03.2017 il tarixində 2017 00255 nömrəli iddia sənədi "Unilever N.V" şirkəti tərəfindən patent müvəkkili vasitəsilə "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsinə verilmişdir.

Apellyasiya şurası müəyyən etdi ki, "Маленькая фея" adlı əmtəə nişanının qeydiyyata alınması haqqında qərar 07.11.2017 tarixində verilmişdir. Həmin qərarın (526) nömrəli kodun altında xüsusi qeydində göstərilmişdir ki, "Əmtəə nişanında "Маленькая фея" söz birləşməsinin elementlərinə ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə verilmədən bütövlükdə qorunur".

İddiaçı qərarın (526) nömrəli kodun altında xüsusi qeydi ilə razı olmamışdır. İddiaçının nümayəndəsi patent müvəkkili T.Yaqubova Apellyasiya şurasına etiraz ərizəsini vermişdir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarını nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, **"фея"** sözü əmtəə nişanını tələblərinə cavab verir.

Apellyasiya şurası hesab edir ki, "Маленькая фея" (2017 00255 nömrəli iddia sənədi) adlı əmtəə nişanının tərkibində **"фея"** sözü 03-cü sinifin əmtəələri üzrə mühafizə olunan element kimi sayıla bilər.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı

1. **"Маленькая фея"** adlı əmtəə nişanının (2017 00255 saylı iddia sənədi) 03-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 07.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.Yaqubova tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və iddia təmin edilsin.
2. **"Маленькая фея"** adlı əmtəə nişanının (2017 00255 saylı iddia sənədi) tərkibində "**фея**" sözü mühafizə olunan element kimi sayılsın.
3. **"Маленькая фея"** adlı əmtəə nişanının (2017 00255 saylı iddia sənədi) 03-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 07.11.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeyd dəyişiklik edərək yeni redaksiyada verilsin:

"Əmtəə nişanında **"Маленькая фея" söz birləşməsində "Маленькая" sözü mühafizə olunmayan elementdir**".

4. Həmin Qərarın 1-3-cü bəndlərində göstərilənləri nəzərə alaraq, əmtəə nişanları Dövlət reyestrində **"Маленькая фея"** adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə qeydiyyata alınaraq, (526) nömrəli kodun altında qeyd edilsin ki: **"Маленькая"** sözü mühafizə olunmayan elementdir.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov